**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**FAKÜLTƏ: BİZNES VƏ MENECMENT**
**«Biznes və logistika» kafedrası**

# "İdxal ixrac əməliyyatları" fənni üzrə

işçi tədris proqramı
(sillabus)

Təsdiq edirəm
«Biznes və loqistika» kafedrasının müdiri,
dos.Əliyev M.Ə.
09 sentyabr 2025-ci il

I. Fənn haqqında məlumat

| | |
|---|---|
| Fənnin kodu | 00386 |
| Fənnin növü | seçmə |
| Tədris ili | 2025/2026 |
| Tədris semestri | payız |
| Tədris forması | əyani |
| Qrup | 942/944 |
| Tədris yükü | 60 saat ( 30 saat mühazirə, 30 saat seminar) |
| Kredit sayı | 4 |

II. Müəllim haqqında məlumat

Fənni tədris edən müəllim i.e.d.,prof. Quliyev Müşfiq Yelmar oğlu
e-mail mushfig.guliyev@unec.edu.az

**Bakı -2025**

## “İdxal/Ixrac əməliyyatları” fənninin tədrisinin əhəmiyyəti

Müasir beynəlxalq iqtisadi münasibətlərin əsas forması kimi beynəlxalq ticarət əlaqələrinin, onun əsas əməliyyatlarının və təşkili xüsusiyyətlərinin öyrənilməsi iqtisadçı mütəxəssislərin praktiki bilik va bacarıqlarının təmin edilməsində əhəmiyyətə malikdir. Dünya iqtisadiyyatına və beynəlxalq ticarət sisteminə inteqrasiya, daha sıx qarşılıqlı əlaqə və asılılıqlar milli iqtisadiyyatların inkişafının obyektiv amilinə çevrilmişdir. Dünya iqtisadiyyatı bütünlüklə beynəlxalq əmək bölgüsünün, ticarətin, istehsalın və kapitalın beynəlmiləlləşməsinin obyektiv qanunlarına əsaslanır.

Xarici ticarət əlaqələri vasitəsilə iqtisadi yaxınlaşma və ayrı-ayrı ölkələrin vahid dünya iqtisadi sisteminə inteqrasiyası dərinləşmişdir. Milli biznes strukturları yeni bazarlarını inkişaf etdirməyə can atırlar, xarici ölkələrin firma və müəssisələrilə ticarət əməliyyatlarını səmərəli şəkildə genişləndirməyə çalışırlar. Bu sahədə fəaliyyətin dinamik inkişafı xarici ticarət sahəsində yeni meyllərin və təcrübələrin öyrənilməsinin əhəmiyyətini şərtləndirir.

### Fənnin tədrisinin məqsədləri

Fənnin tədrisinin əsas məqsədi: ixrac (idxal) fəaliyyətinin idarə edilməsi və təşkili sahəsində peşəkar funksiya və səlahiyyətlərin həyata keçirilməsi üçün zəruri olan səlahiyyətlərin formalaşdırılması və inkişaf etdirilməsi, habelə ixrac (idxal) fəaliyyətinin təşkili ilə məşğul olacaq gələcək mütəxəssislərin bacarıqlarının artırılmasıdır. Fənnin tədrisi Azərbaycanın xarici ticarət əlaqələrinin, biznes strukturların ixrac (idxal) fəaliyyətinin tənzimlənməsi, təşkili və təhlilinin nəzəri və praktiki əsaslarının öyrənilməsinə əsaslanır.

Fənn proqramı bakalavr səviyyəsində tədris üçün nəzərdə tutulub.

Fənnin öyrənilməsinin məqsədi “ixrac/idxal əməliyyatlarının mahiyyəti və təşkili, onun inkişafı və tənzimlənməsi haqqında yeni nəzəri-praktiki biliklər əldə etmək, həmçinin xarici bazarlarda bu biliklərin istifadəsi sahəsində bacarıqlara yiyələnmək təşkil edir.

### Fənnin öyrənilməsinin vəzifələri

- ixrac/idxal fəaliyyətinin təşkilinə müasir yanaşmalarla tanışlıq;
- qabaqcıl dünya və milli təcrübələrə əsaslanaraq ixrac fəaliyyətinin əsaslarının və təşkili konsepsiyalarının öyrənilməsi;
- ixrac/idxal fəaliyyətinin dövlət tənzimlənməsi prinsiplərinin və alətlərinin sistemləşdirilmiş şəkildə mənimsənilməsi;
- ixrac/idxal fəaliyyətinin təşkili proseslərinin öyrənilməsi;
- ixrac/idxal fəaliyyətinin təşkilinin obyekt və subyektlərinin öyrənilməsi;
- ixrac fəaliyyətinin təşkili üzrə ilkin bacarıqların əldə edilməsi.
- beynəlxalq biznes sahəsində peşəkar səriştənin formalaşdırılması;
- xarici bazarlarda sahibkarlıq fəaliyyətinin xüsusiyyətlərinin öyrənilməsi;

- müəssisənin (firmanın) xarici ticarət fəaliyyəti prosesində beynəlxalq biznes prinsiplərinin həyata keçirilməsi bacarıqlarının formalaşdırılması;
- beynəlxalq ticarətin inkişafının tənzimlənməsi sistemini başa düşmək;
- qloballaşmanın ixrac/idxal əməliyyatlarının liberallaşdırılmasına və inkişafına təsirinin müəyyən edilməsi.

**Tələbənin kursun mənimsəməsi nəticəsində formalaşan kompetensiyaları**.

- ϒ peşə fəaliyyətində xarici ticarət fəaliyyətində təşkilati və idarəetmə qərarlarını formalaşdırmaq bacarığı;
- ϒ biznes risklərini və mümkün sosial-iqtisadi nəticələri nəzərə almaqla ticarət əməliyyatlarının təşkili üçün təkliflər hazırlamaq və əsaslandırmaq bacarığı.
- ϒ ixrac/idxal fəaliyyətinin əsas anlayışlarını, kateqoriyalarını, xüsusiyyətlərini və inkişaf amillərini bilmək;
- ϒ ixrac/idxal fəaliyyətinin gömrük tarifi, qeyri-tarif və valyuta tənzimlənməsinin hüquqi və təşkilati əsaslarını bilməli;
- ϒ ixrac/idxal fəaliyyətinin tənzimlənməsinə dair qanunvericilik sənədlərini təhlil edib istifadə etməyi bacarmalı;
- ϒ ixrac/idxal əməliyyatlarının konkret formalarından istifadəni Azərbaycanın gömrük məcəlləsi və rəqabət şəraiti baxımından əsaslandırmağı bacarmaq;
- ϒ ixrac fəaliyyəti sahəsində konseptual aparatı mənimsəmək;
- ϒ ixrac fəaliyyətinin tənzimlənməsinin gömrük tarifi və qeyri-tarif üsullarından istifadə etmək.

**“İdxal ixrac əməliyyatları” fənninin mənimsənilməsi nəticəsində təhsil alan bilməli, bacarmalı və aşağıdakı peşə səlahiyyətlərinə malik olmalıdır:**

**Bilməlidir:**

Beynəlxaiq ticarət fəaliyyətinə aid olan terminlərləri;
İdxal ixrac əməliyyatları ilə məşğul olan təsərrüfat subyektlərinin fəaliyyətinin təşkilini;
İdxal və ixrac əməliyyatları üçün malların axtarış üsullarını, həcminin müəyyən edilməsini;
İdxal ixrac əməliyyatlarında gömrük prosedurlarını;
Yeni informasiya kommunikasiya texnologiyalarının tədbiq edilməsini;
İxracat üçün mallarının qablaşdırılması və markalanması qaydalarını;
İxracatda sertifikatlaşma,lisenziyalaşdırma qaydalarını, idxalat prosedurları və üsullarını;
İdxal ixrac əməliyyatlarında risklər və sığorta prosedurlarını;
İdxal ixrac əməliyyatlarında qiymətləndirmə, ödəmə şərtləri və prosedurlarını;
Beynəlxalq nəqliyyat xidmətlərinin növlərini, malgöndərmənin bazis şərtlərini, malların məntəqəyə çatdırılmasında nəqliyyat növünün düzgün seçilməsini.

**Bacarmalıdır:**

Malik olduğu biliklər sayəsində idxal ixrac əməliyyatlarını yerinə yetirmək üçün kontragentləri düzgün seçməyi;
Beynəlxalq hüquq normaları nəzərə alınmaqla beynəlxalq kontraktların bağlanmasını təmin etməyi;
Malların çatdırılması prosesində səmərəli nəqliyyat növünün, istiqamətlərinin və bazis şərtlərinin təmin olunmasını;
Gömrük prosedurlarını müvafiq qanunvericiliyə uyğun yerinə yetirilməsini;
Idxai ixrac əməliyyatlarının səmərəliliyinin qiymətləndirilməsi və sazişlərin yerinə yetirilməsinə nəzarətin təmin edilməsini;
Müəssisənin fəaliyyətini təhlil etməklə gələcək dövr üçün fəaliyyət planının işlənib hazırlanmasını.

**Malik olmalıdır:**

-idxal-ixrac fəaliyyətini tənzimləyən qanunvericilik sənədlərini təhlil edib istifadə etmək səriştələri;
-ixrac əməliyyatlarının təşkilini rəqabət şəraiti baxımından əsaslandırma qabiliyyəti;
-İdxal-ixrac əməliyyatlarının təşkili üçün ixtisaslı işçi heyətini formalaşdırmaq və tərəfdaşlarla sistemli iş aparmaq bilikləri;
-təşkilatların əməliyyat (istehsalat) fəaliyyətinin idarə edilməsində strateji, taktiki və operativ qərarların qəbul edilməsi metodlarından istifadə;
-peşəkarlıq fəaliyyətinin (beynəlxalq kommersiya və logistika, marketinq, reklam, informatika və s.) təşkili və idarə edilməsi üçün lazım olan informasiyanın toplanması, işlənib emal olunması və nəticələri sistemləşdirilmək qabiliyyəti;
-beynəlxalq ticarət əlaqələrinin yaradılması məqsədilə xarici partnyorların axtarılması, kontraktların bağlanması və icrasının təmin edilməsini bacarıqları;
-biznesin perspektivləri üzrə iqtisadi təfəkkür (düşüncə) qabiliyyətinə malik olmalı.

**Fənn üzrə saatların həcmi**

Fənnin tədrisi ümumilikdə 45 saat nəzərdə tutulmuşdur ki, bunun da 30 saat mühazirə, 15 saat seminar dərsləridir. Tövsiyə olunan nəzarət formaları – aralıq və yekun imtahandır.

## “İdxal ixrac əməliyyatları” fənninin mövzularının tematik planı üzrə dərs saatlarının bölgüsü

| Sıra № si | Fənnin mövzularının adı<br>Cəmi | Mühazirə | Məşğələ |
|---|---|---|---|
| | **BEYNƏLXALQ TİCARƏT ƏMƏLİYYATLARININ TƏŞKİLİ FORMALARI** | | |
| 1 | İxrac (idxal) əməliyyatlarının məzmunu, formaları və təsnifat prinsipləri | 2 | 2 |
| 2 | Təkrar ixrac (idxal) əməliyyatları | 2 | |
| 3 | İstehsal əməkdaşlığı (kooperasiya) çərçivəsində ixrac (idxal) əməliyyatları | 2 | 2 |

| | | | |
|---|---|---|---|
| 4 | Xarici ticarətin rəqəmsallaşması və on-line əməliyyatlar | 2 | |
| | **İXRAC (İDXAL) FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİ** | | |
| 5 | İxrac-idxal fəaliyyətinin gömrük tənzimlənməsi | 2 | 2 |
| 6 | Xarici ticarətin qeyri-tarif tənzimlənməsi tədbirləri və ixrac fəaliyyətinə təsiri | 2 | |
| 7 | İxrac-idxal əməliyyatlarının valyuta tənzimlənməsi və valyuta nəzarəti | 2 | 2 |
| 8 | Xarici ticarət əməliyyatlarının beynəlxalq tənzimlənməsi (ÜTT, UNCITRAL) | 2 | |
| | **İXRAC-İDXAL PROSEDURLARI, SƏNƏDLƏŞDİRMƏ VƏ LOQİSTİKA** | | |
| 9 | Xarici ticarət müqaviləsinin strukturu, hazırlanması və "4P" qərarları | 2 | 2 |
| 10 | Beynəlxalq ticarətdə INCOTERMS qaydaları və tədarük şərtlərinin seçilməsi | | |
| 11 | İxrac bazarlarının araşdırılması və ixrac strategiyasının seçilməsi | 2 | 2 |
| 12 | Xarici ticarət əməliyyatlarının ödəniş hesablaşma üsulları | 2 | |
| 13 | Malların ixraca hazırlanması, loqıstıka və təchizat zəncirinin idarə edilməsi | 2 | 2 |
| 14 | Xarici ticarət fəaliyyətində sıgorta əməliyyatları və institutları | 2 | |
| | **AZƏRBAYCANDA İDXAL VƏ İXRAC ƏMƏLİYYATLARI** | | |
| 15 | Azərbaycanda idxal və ixrac fəaliyyətinin tənzimlənməsi və ixraca dövlət dəstəyi | 2 | 1 |
| | Cəmi | 30 | 15 |

Əsas ədəbiyyat

Export–Import Theory, Practices, and Procedures By Belay SeyoumCopyright 2021 4th Edition

Export/Import Procedures and Documentation: Bade, Donna L., 2015, fifth edition

Əlavə ədəbiyyat

Keillor, Bruce D., Kanna, Vijay R. and Wilkinson, Timothy J.: *International Businness in the 21 st Century* Praeger, 2011
Root, Franklin R.: *Entry Strategies for International Markets* Jossey-Bass, 1994
Branch, Alan: *Export Practice and Management* Thomson, 2006 5th ed.
Albaum, Gerald / Duerr, Edwin / Strandskov, Jesper: *International Marketing and Export Management* Prentice Hall, 2005, 5th ed.
Cateora, Philip R. / Graham, John L.: *International Marketing* Mc Graw Hill, 2005, 12th ed.

*Incoterms® 2020 English Edition* International Chamber of Commerce (ICC), 2020
Bridge, Michael / *The International Sale of Goods: Law and Practice* Oxford University Press, 2007
Guillermo C. Jimenez: *ICC Guide to Export/Import: Global Standards for International Trade* ICC Product No. 686E, 2012 Edition
*Commentary on UCP 600* Article Analysis by the UCP 600 Drafting Group International Chamber of Commerce (ICC) Product No. 680E, 2007 Edition
Understanding Global Trade by Elhanan Helpman
The World that Trade Created by Kenneth Pomeranz
Global Trade Policy: Questions and Answers by Pamela J. Smith
International Trade and Port Logistics by I.C.J. Verhaart
Rethinking International Trade by Paul KrugmanPaul Krugman
International Trade Law by Peter Stone
Building an Import/Export Business by Kenneth D. Weiss
Essentials of Supply Chain Management, Third Edition by Michael H. Hugos
The Box: How the Shipping Container Made the World Smaller and the World Economy Bigger by Marc Levinson
How Small Business Trades Worldwide: Your Guide to Starting or Expanding a Small Business International Trade Company Now by John Spiers
Международная классификация нетарифных мер, издание ЮНКТАД 2012 года
Международный маркетинг: учебник и практикум для бакалавриата и магистратуры / А. Л. Абаев [и др.]; под ред. А. Л. Абаева, В. А. Алексунин. — М.: Издательство Юрайт, 2018. — 362 с.
Дыбская В.В. Логистика складирования : Учебник [Электронный ресурс] : ИНФРА-М , 2020 - 559 - Режим доступа: http://znanium.com/catalog/document?id=359089
Игнатова, О. В. Международные расчеты и платежи. Практикум : учебное пособие для академического бакалавриата / О. В. Игнатова, О. А. Горбунова, А. А. Прудникова ; под редакцией О. В. Игнатовой. — Москва : Издательство Юрайт, 2019. — 218 с. — (Бакалавр. Академический курс). — ISBN 978-5-534-06426-1.
Чейз, Ричард, Б., Джейкобз, Роберт, Ф. Эквилайн, Николас, Дж. Производственный и операционный менеджмент, 10-е издание. [Текст] / Ричард, Б. Чейз, Роберт Ф. Джейкобз, Николас Дж. Эквилайн. – М.: Издательский дом «Вильямс», 2017. – 1094 с.
Бланшар, Эмили Дж., Чад П. Боун, и Роберт К. Джонсон (2016 г.). Глобальные цепочки поставок и торговая политика. Исследовательский рабочий доклад, № 7536. Вашингтон: Всемирный банк. Доступно по ссылке: https://openknowledge.worldbank.org/handle/10986/23702 Де Бакер, К. и Д. Флэйг (2017 г.). «Будущее глобальных цепочек создания стоимости: все по-старому или «новые стандарты»?». ОЭСР, документы в сфере науки, технологии и промышленности. № 41. Париж: Издательство ОЭСР. Доступно по ссылке: http://dx.doi.org/10.1787/d8da8760-en
ОЭСР (2013 г.). Взаимосвязанные экономики: преимущества глобальных цепочек создания стоимости. Доступно по ссылке: http://dx.doi.org/10.1787/9789264189560-en
Упрощение процедур торговли для облегчения доступа к региональным и глобальным рынкам,Европейская Экономическая Комиссия, Учебное пособие : www.unece.org/trade/publications.html
Ахвледиани Ю.Т. Страхование [Электронный ресурс]: учебник для студентов вузов, обучающихся по специальностям «Финансы и кредит», «Бухгалтерский учет, анализ и аудит»/ Ахвледиани Ю.Т.— Электрон. текстовые данные.— М.: ЮНИТИ-ДАНА, 2017.— 567 с.— Режим доступа: http://www.iprbookshop.ru/71060.html.— ЭБС «IPRbooks» 2. Горулов Д.А. Организация страхового дела : учеб. пособие / Д.А. Горулев. – СПб. : Изд-во СПбГУЭФ, 2012. – 112 с. - Режим доступа: http://gorulev.ru/files/FINEC/lections_books/book_Org_Str_delo.pdf
Azərbaycan Respublikasinin Gömrük Məcəlləsi, https://www.e-qanun.az/framework/46957

Azərbaycanın xarici ticarəti, https://www.stat.gov.az/source/trade/
https://economy.gov.az/az/page/beynelxalq-elaqeler/iqtisadi-teskilatlarla-emekdasliq/qlobal-teskilatlara

**SEMİNAR-MƏŞĞƏLƏLƏR: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

**FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ** ***(Əyani təhsilalma forması üzrə)***

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

## İMTAHAN VƏ İMTAHANA GƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ

| 91-100 bal | əla | A |
|---|---|---|
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

**Tərtib etdi:**

